

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 241 (21.393)

9 dekabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Əməkdar incəsənət xadimi" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Tofiq Əhməd Ağa oğlu Bakıxanova **"Əməkdar incəsənət xadimi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 dekabr 2015-ci il*

# Vayxır sol sahil suvarma və drenaj şəbəkəsi istifadəyə verilmişdir



Dekabrın 8-də Vayxır sol sahil suvarma və drenaj şəbəkəsinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Ali Məclisin Sədri Vayxır sol sahil suvarma və drenaj şəbəkəsinin istifadəyə verilməsi münasibətilə torpaq mülkiyyətçilərini təbrik edərək demişdir: Hər bir ölkədə ərzaq təhlükəsizliyini təmin etmək üçün ilk növbədə kənd təsərrüfatı inkişaf etdirilməlidir. Aydın məsələdir ki, kənd təsərrüfatının inkişafı da müasir meliorasiya və irriqasiya sistemləri olmadan mümkün deyil. Bu zərurəti nəzərə alan ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən başlayaraq ölkəmizdə meliorasiya və irriqasiya sahəsində kompleks tədbirlər həyata keçirilmiş, yeni su anbarları, nasos stansiyaları, suvarma kanalları tikilmiş, torpaqların su təminatı xeyli dərəcədə yaxşılaşdırılmışdır. Ulu öndərimiz ölkəmiz müstəqillik qazandıqdan sonra da bu məsələni diqqətdə saxlamış, ölkə Prezidenti də meliorasiya və su təsərrüfatı sisteminin kompleks şəkildə inkişaf etdirilməsi üçün dövlət proqramlarını imzalamışdır.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasında da torpaq sahələrinin meliorasiya və irriqasiya sistemləri ilə təchiz olunması daim diqqət mərkəzində saxlanılır. "Kənd təsərrüfatı ili"ndə bu sahədə həyata keçirilən tədbirlərin miqyası xeyli genişləndirilmiş, rentabelli suvarma şəbəkələrinin qurulması hesabına torpaq sahələrinin dayanıqlı su təminatı yaradılmışdır. Müasir irriqasiya sistemlərinin, kollektor-drenaj şəbəkələrinin və nasos stansiyalarının, yeni suvarma boru xətlərinin istifadəyə verilməsi nəticəsində bu il muxtar respublikada 6 min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Bu gün istifadəyə verilən qapalı suvarma və drenaj şəbəkəsi də muxtar respublikada yaradılan mühüm irriqasiya sistemlərindəndir. Böyük iqtisadi əhəmiyyəti olan bu layihənin reallaşdırılması nəticəsində Babək rayonu Nehrəm kəndinin 1170 hektar və Culfa rayonu Bənəniyar kəndinin 1050 hektar olmaqla, ümumilikdə, 2220 hektar torpaq sahəsində müasir suvarma sistemi qurulmuşdur. Yaradılan şərait ərazidə suyun itkisiz çatdırılmasını, yeraltı suların ərazilərdən uzaqlaşdırılmasını, əvvəllər suvarılması mümkün olmayan sahələrə də su verilməsini təmin etməklə şoranlaşmanın qarşısının alınmasına, bol məhsul istehsalına, bir sözlə, muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edəcəkdir.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik.*** Bu gün müasir hidrotexniki qurğuları yaratmaqla yanaşı, onlardan səmərəli istifadə də qarşıda duran əsas vəzifədir. Torpaq mülkiyyətçiləri və sahibkarlar yaradılan şəraitdən düzgün istifadə etməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalıdır. Muxtar respublikada meliorasiya və irriqasiya sahəsində müasir infrastruktur ona görə yaradılır ki, torpaqlar əkilsin, bol kənd təsərrüfatı məhsulu istehsal olunsun. Ona görə də aid dövlət orqanları və yerli icra hakimiyyətləri müasir irriqasiya sistemlərinin əhəmiyyəti, onların normal istismarının təşkili ilə bağlı torpaq mülkiyyətçiləri ilə maarifləndirmə işləri aparmalıdırlar. Suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmalıdır. Mütərəqqi suvarma metodlarının tətbiqi və rentabelli suvarma şəbəkələrinin qurulması, sudan istifadədə qənaətedici texnika və texnologiyaların tətbiqi davam etdirilməli, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmalıdır. Əkin sahələrində su itkisinin və şoranlaşmanın qarşısının alınması üçün şırım üsulu ilə əkinə üstünlük verilməlidir.

Ali Məclisin Sədri bu vəzifələrin icrasında hər kəsə uğurlar arzulamış, yeni suvarma və drenaj şəbəkəsinin qurulmasında əməyi olanlara təşəkkür etmişdir.

Torpaq mülkiyyətçisi Adil Hüseynov çıxış edərək demişdir ki, torpaqların əkilməsi bolluq, bərəkət deməkdir. Lakin suvarma suyunun olmaması və şoranlaşma uzun illər Babək və Culfa rayonlarının bu ərazisində əkin işlərinin aparılmasına, bol məhsul istehsalına imkan vermirdi. Bu gün isə müasir suvarma və drenaj sistemi qurulub, torpaqlardan səmərəli istifadə üçün hərtərəfli şərait yaradılıb. Həyata keçirilən bu layihə iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də ölkəmizdə insanların həyat şəraitinin yaxşılaşdırılması üçün aparılan işlərin bir hissəsidir. Çünki torpaqları əkməklə bol məhsul istehsal edəcəyik. Bu da bizim ailələrimizin dolanışığını yaxşılaşdıracaqdır. Adil Hüseynov göstərilən diqqət və qayğıya görə torpaq mülkiyyətçiləri adından dövlətimizə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri nəticəsində iqtisadiyyatın bütün sahələri kimi, meliorasiya və su təsərrüfatı sistemi də hərtərəfli inkişaf etmişdir. Son illər bu istiqamətdə bir sıra layihələr həyata keçirilmiş, irriqasiya sistemləri daha da təkmilləşdirilmişdir. Suvarma sistemlərinin normal istismarının təşkili, qrunt sularının və şoranlaşmanın aradan qaldırılması muxtar respublikada əkinçiliyin inkişafına hərtərəfli şərait yaratmışdır.

Sonra Ali Məclisin Sədri Vayxır sol sahil suvarma və drenaj şəbəkəsinin baş planına baxmışdır.

Məlumat verilmişdir ki, suvarma və drenaj şəbəkəsi 1974 təsərrüfata məxsus pay torpaqlarını və 450 hektar bələdiyyə torpaqlarını əhatə edir. Tikinti zamanı 241,5 kilometr uzunluğunda müxtəlif diametrlik suvarma xətləri çəkilmişdir. Şəbəkəyə suyun verilməsi üçün Heydər Əliyev Su Anbarından başlayan Vayxır sol sahil kanalı üzərində 4 suburaxıcı qapı və 6 süzgəc quraşdırılmış, ərazinin relyefi nəzərə alınaraq suvarma xətlərinin üzərində 3 təzyiqqırıcı, 238 siyirtmə və 1950 hidrant qoyulmuşdur.

Qapalı drenaj sistemlərinin tikintisi üçün 77,5 kilometrlik müxtəlif ölçülü plastik borulardan istifadə olunmuşdur. Drenaj şəbəkəsi üzərində 77 baxış quyusu inşa edilmişdir. Ərazidən drenaj sularını kənarlaşdırmaq üçün 6,5 kilometrlik mövcud açıq kollektor bərpa olunmuş və suyun Nehrəm gölünə verilməsi təmin edilmişdir.

Ali Məclisin Sədri idarəetmə düyməsini basaraq Vayxır sol sahil suvarma və drenaj şəbəkəsini istifadəyə vermişdir.






Sonra torpaq mülkiyyətçiləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, muxtar respublika iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Ona görə də bu sahədə ardıcıl tədbirlər görülür, kənd təsərrüfatı texnikaları lizinq yolu ilə verilir, mütərəqqi əkin və suvarma metodları tətbiq olunur, istehsal olunan kənd təsərrüfatı məhsullarının satışı üçün hərtərəfli şərait yaradılır. Hazırda muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulları daxili bazarın tələbatını ödəməklə yanaşı, həm də ixrac potensialı yaratmışdır. Torpaq mülkiyyətçiləri yaradılan şəraitdən səmərəli istifadə etməli, suvarma və drenaj şəbəkəsinin əhatə etdiyi torpaqlarda bol məhsul yetişdirilməlidir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Qədim Ordubad müasir inkişaf yolundadır

## Vətənpərvər, yurdsevər insanların sayəsində bu diyarın da hər qarışı gülüstana çevrilib

*Ulu babalarımız: “Arxası dağ olanın başı göylərə çatar”, – deyiblər. Hər dəfə yolumu Ordubada salanda, buludlara boylanan Bəlgə dağının daşının-qayasının tamaşasına duranda, bu dağın qoynuna söykənən, yaşı qədimdən-qədim şəhəri görəndə nədənsə, bu atalar sözü yadıma düşür. Fikirləşirəm ki, atalarımız bu sözləri insanlar barəsində yox, hər zaman heyranı olduğum bölgəmiz – Ordubad haqda desəydi, bu şəhəri görən heç kimdə bu fikrin doğru olduğuna şübhə yaranmazdı. Bu şəhərin bir ucu Xan Arazda, bir ucu dağların yamaclarındadır. Şüşə kimi hamar yolları, möhtəşəm tikililəri, tarixi abidələri, abad küçələri, qocaman çinar ağacları, bol sulu kəhrizləri, məktəbləri, uşaq bağçası, muzeyləri, qonaqpərvər insanları ilə şəhər sanki ona uzaqdan tamaşa edənlərə “Gəl, mehmanım ol!” deyir.*



### *Əzizim el yoludu…*

Yol gedir Ordubada… Rayonun bu günündən söz açmışkən dağlar arasında ilan kimi gah qıvrılıb, gah açılan yollar, körpülər haqda danışmamaq, ağappaq yol nişanları ilə bəzədilmiş yolların ətrafında sırayla salınan, balaca uşaq kimi hər gün qulluq və nəvaziş görən fidanları vəsf etməmək ən azından etinasızlıq olar. Maraqlısı budur ki, bir ucu Ordubad şəhərindən başlayan yolların istənilənini gözünə kəsdirib getsən, sonuncu ünvana, kəndə qədər aparan yolda eyni keyfiyyətin, eyni səliqənin və diqqətin şahidi olarsan. Hamar yolda irəliləyən avtomobil bağ-bağçaların, bir-birindən yaraşıqlı kənd mərkəzlərinin, məktəblərin, həkim ambulatoriyalarının, muzeylərin və digər obyektlərin yanından keçdikcə rayonun müstəqillik dövründə keçdiyi uğurlu yol kino lenti, salnamə kimi gözlər önünə gəlir, bir daha əmin olursan ki, müstəqil Azərbaycanın çiçəklənən Ordubadında hər şey müsbətə doğru dəyişilib, hər şey yenilənib. İstər-istəməz bu dəyişikliklərin əldə olunması üçün gərgin əmək sərf edildiyi qənaətinə gəlirsən. Çünki rayonun aran kəndləri bir tərəfə dursun, ucqar dağ kəndlərində, sıldırım qayaların qənşərində elə tikililər ucaldılıb ki, burada daş üstünə daş qoyulması 70 illik sovet dövrünün inşaatçıları üçün müşkül məsələ olub. Ancaq müstəqillik illərində dövlətimizin qətiyyətli addımları inşaatçıları gördükləri işə daha da həvəsləndirib. Ucqar dağ kəndlərinə mal-materialın, avadanlığın, texnikanın aparılması nə qədər çətin olsa da, qarşıya çıxan çətinliklər inşaatçılarımızı qorxutmayıb, əksinə, onlar böyük diqqət, məsuliyyət və əzmkarlıqla öhdələrinə düşən vəzifələri yerinə yetiriblər. Ümumiyyətlə, son 20 ildə rayonda 80-dən çox obyekt inşa edilərək və ya yenidən qurularaq istifadəyə verilib, onlarla yaşayış məntəqəsi, eləcə də ucqar dağ yaşayış məntəqələri abad kəndlər sırasına qoşulub. Ötən müddətdə 27 ümumtəhsil məktəbi, 1 musiqi məktəbi, 1 uşaq bağçası, 24 səhiyyə, 1 idman, 29 mədəniyyət obyekti inşa edilərək istifadəyə verilib, 15 kənd mərkəzi həyata vəsiqə alıb. 2002-ci ildə rayonda əsas kapitala yönəldilmiş investisiyaların tikinti-quraşdırma işlərinə ayrılan həcmi 330 min manat idisə, təkcə 2015-ci ilin 10 ayında bu rəqəm 44 milyon 165 min manat təşkil edib. Bu fakt bir daha göstərir ki, rayonda tikinti-quruculuq işlərinin miqyası ilbəil genişləndirilir. Bütün bu görülən işlər rayonun dünənindən bu gününə seçilən düzgün yolun qazandırdığı nailiyyətlərdən, dövlətimizin rayon sakinlərinin rahat yaşamasına və işləməsinə diqqətindən, bir sözlə, muxtar respublikada insan amilinə verilən önəmdən xəbər verir.

### *Tənəzzüldən tərəqqiyə doğru*

Ordubad rayon Sabirkənd sakini, sovetlər dövründə uzun illər ictimai təsərrüfatlarda rəhbər vəzifələrdə çalışmış, müxtəlif mükafatlara layiq görülmüş İmran İbrahimov deyir ki, rayonda son illərdə əkinçiliyə, eləcə də kənd təsərrüfatının digər sahələrinə marağın artması bir çox amillərlə bağlıdır. Yəni torpağa münasibətin dəyişməsi səbəbsiz deyil. Müstəqilliyin ilk illərində minbir əziyyətlə yetişdirilən məhsul suvarma suyu çatışmazlığı ucbatından əkinçinin gözü qarşısında tələf olurdu. Bir çox hallarda isə alıcı məsələsi həllini tapmadığından yetişdirilən məhsul tarlada dəyər-dəymazinə satılırdı. Bundan başqa, istehsalçı, əkinçi bilmirdi ki, yaxşı məhsuldarlığa nail olmaq üçün keyfiyyətli toxumları, mineral gübrələri haradan və kimdən alsın. Üstəlik, əkinçinin sağ əli hesab olunan texnika sarıdan təminat aşağı səviyyədə idi. Ən yaxşı halda sovet dövründən qalma köhnə və yararsız maşın-mexanizmlər kara gəlirdi. İstismar müddətini başa vurmuş bu texnika ilə aqrotexniki tədbirlərin müəyyən olunmuş müddətdə həyata keçirilməsini, məhsulun vaxtında və itkisiz yığılmasını təşkil etmək mümkün deyildi. Təbii ki, bu çətinliklərin müqabilində əkinçinin qazancı az olurdu. Gəlir çəkilən xərcləri ödəmirdi. Nəticədə, istehsalçı torpaqdan aralı düşürdü. Amma nə yaxşı ki bu çətinliklərin ömrü uzun olmadı. Ölkənin maddi imkanları yaxşılaşdıqca dövlətin aqrar sahəyə qayğı və diqqəti artdı. Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi, kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi, onların yüksəkkeyfiyyətli toxumla, gübrə və texnika ilə təmin olunması, eləcə də emal müəssisələrinin yaradılması, suvarma sistemlərinin təkmilləşdirilməsi və yenidən qurulması kəndlini torpağa qaytardı. İndi istəsə kəndli məhsulu həmin gün satar, istəsə soyuducu anbarlara tədarük edər, qış aylarında sərfəli qiymətə bazara çıxarar. Bir ağsaqqal kimi torpaq mülkiyyətçilərinə üzümü tutub demək istəyirəm ki, yaradılan şəraitin qədir-qiymətini bilsinlər, bu imkanlardan səmərəli istifadə etsinlər, şəraitin yaratdığı üstünlükləri dəyərləndirməyi bacarsınlar. Onda xeyir-bərəkət də olacaq, bolluq da.



Müstəqillik illərində Ordubadda aparılan torpaq islahatı ilə əlaqədar olaraq əhalinin ixtiyarına 2755 hektar pay torpağı verilib. Hazırda 4705 hektar torpaq sahəsi istifadədədir. Həyata keçirilən tədbirlər nəticəsində əkin sahələrinin genişləndirilməsində, məhsuldarlığın artırılmasında böyük nailiyyətlər əldə edilib. Əgər 2000-ci ildə rayonda əkin sahələri 2295 hektar təşkil edirdisə, 2015-ci ildə bu rəqəm 3933 hektara çatdırılıb. 2000-ci ilin və 2015-ci ilin on ayının nəticələrini müqayisə etsək görərik ki, bəhs edilən zaman kəsiyində rayonda dənli və dənli-paxlalılar istehsalı 4, taxıl istehsalı 4,1, kartof istehsalı 5,3, tərəvəz istehsalı 2, ərzaq üçün bostan bitkiləri istehsalı 1, meyvə istehsalı 2,6 dəfə artıb. Bu da torpaq mülkiyyətçilərinin göstərilən dövlət qayğısına layiqli cavabından, kəndlinin gördüyü işə inamından, torpağa bağlılığından xəbər verir.





Bağ salmaq, ağac əkmək, bağçaları gül-çiçəyə qərq etmək ata-babalarımızdan bizə miras qalıb. Ordubadda iməciliklər yolu ilə yerli iqlim və relyefə uyğun tezyetişən meyvə sortlarından ibarət meyvə bağları salınıb, 140 mindən artıq ting əkilib. Dövlətin maliyyə dəstəyindən yararlanan rayon sakinləri qurutma, paketləmə sahələri, istixanalar yaradıblar. 2004-cü ildən 2015-ci ilədək rayonda 137,9 hektar sahədə meyvə bağları salınıb. Yeni salınan meyvə bağlarının 13,4 hektarı ötən ilin payına düşüb. Təkcə ötən il meyvə bağlarından 1583 ton məhsul tədarük olunub. Bu il rayonun bağlarında 35 növdə ərik, 17 növdə şaftalı, 22 növdə gavalı, 9 növdə alça, 35 növdə cəviz, 14 növdə heyva, 16 növdə armud, 6 növdə əncir, müxtəlif növlərdə gilas, gilənar, zoğal, badam yetişdirilib, dadı-tamı ilə bütün ölkədə məşhur olan limon istehsalı artırılıb. Əhalinin alıcılıq imkanlarının yaxşılaşması bazarlara Ordubad rayonundan daha çox süfrə üzümü və ondan hazırlanan müxtəlif məhsulların çıxarılması ilə müşayiət olunur. Süfrələrimizin bəzəyi, insan sağlamlığı üçün zəngin biokimyəvi tərkibə malik olan kişmiş və mövüc istehsalı da ilbəil artırılır. Hazırda daxili və xarici bazara keyfiyyətli məhsul çıxarılması, yeni texnologiyanın tətbiqi, üzümçülük üzrə böyük fermer təsərrüfatlarının yaradılması istiqamətində məqsədyönlü iş aparılır, üzümçülüyün sənaye miqyasında genişləndirilməsi imkanları araşdırılır.



Ordubadda heyvandarlıq və arıçılıq kənd adamlarının ənənəvi məşğuliyyətlərindəndir. Heyvandarlıq, əsasən, dağ kəndlərində yaxşı nəticələr verib. Müqayisəli təhlil aparsaq görərik ki, 2000-ci ildə rayonda 4895 baş iribuynuzlu mal-qara var idisə, 2015-ci ildə bu göstərici bəhs olunan dövrlə müqayisədə 2 dəfə artaraq 9948-ə çatdırılıb. Xırdabuynuzlu heyvanların sayında da haqqında söhbət açdığımız zaman kəsiyində, təxminən, ikiqat artım müşahidə edilib. 2000-ci ildə rayonda 420 ton ət, 3850 ton süd, 5 milyon 800 min ədəd yumurta, 52 ton yun istehsal edilmişdi. 2015-ci ilin 1 noyabr tarixinə olan məlumat isə onu göstərir ki, müqayisə olunan dövrdə ət istehsalı 2 dəfə, qalan məhsullar 2 dəfəyə yaxın artıb. Bu da yerlərdə əlverişli şəraitin olması ilə bərabər, baytarlıq xidmətinin ən yüksək səviyyədə təşkili ilə bağlıdır.

Müstəqillik illərində arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, dövlət maliyyə dəstəyinin gücləndirilməsi daha uğurlu göstəricilər əldə edilməsinə şərait yaradıb. Bütün bunların nəticəsidir ki, rayonda arı ailələrinin sayı ilbəil artır, istehsal olunan məhsulun nəinki rayondan, hətta muxtar respublika hüdudlarından kənarda da satışı təşkil edilir. Qeyd edək ki, 2014-cü ildə rayonun arıçılıqla məşğul olan təsərrüfat sahibləri 71 ton bal istehsal ediblər.

### *Qazanılan uğurlar sosial rifaha təminat verir*

Ordubad rayonunun yaşayış məntəqələrini gəzərkən, tarixiliyin və müasirliyin vəhdətindən doğan gözəllikləri seyr edərkən bir daha müstəqilliyimizin saysız bəhrələrinin insanların həyatına, məişətinə, yaşayış tərzinə müsbət təsir etdiyinin şahidinə çevrilirsən. Əmin olursan ki, dahi rəhbərimiz Heydər Əliyevin bizim üçün əbədiliyini təmin etdiyi müstəqil Azərbaycanda qarşıdan gələn hər il yeni uğurlar, nailiyyətlər gətirir, ölkəmizin incisi olan bu bölgəmiz daha da inkişaf edərək dünyanın ən gözəl yaşayış məskənlərindən biri kimi tanınır.



**Yazımın əvvəlində Ordubad şəhərinin arxasını dağa söykəyib zirvədə qərar tutduğunu qeyd etmişdim. Yuxarıda sadalananlardan sonra eyni fikirləri Ordubad rayonunun qədirbilən insanları haqda da deyə bilərəm. Onu da deyim ki, bu insanların söykəndiyi dağ dövlətimizdir. Vətənsevər, yurdsevər insanların sayəsində qədim diyarın hər qarışı gülüstana çevrilib, insanları xoş gün-güzərana, sakit həyata, firavanlığa qovuşub. Keçmiş və gələcək prizmasından baxanda bir daha aydın olur ki, ötən 20 ildə görülən bütün işlər son məqamda insan amilinə, insanların yaxşı yaşamasına hədəflənib.**

**Səbuhi HÜSEYNOV**

*Dövlət proqramı necə icra olunur?*

## Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi onların arzularını reallığa çevirib

***İnsan uşaqlıq dövründən başlayaraq daim mübarizə aparır: yaşamaq, yaratmaq, amallara çatmaq uğrunda. Sağlamlıq imkanları məhdud olan uşaqların mübarizəsi isə təkcə bununla bitmir. Onların həmyaşıdları ilə yan-yana durmaq, birgə oynamaq, təhsil almaq və sairə kimi arzuları uğrunda daxilən gizli apardıqları mübarizə də var. Artıq sağlamlıq imkanları məhdud uşaqlar bu mübarizədə tək deyillər. Onlara dəstək verən, qəlblərindən keçənləri gerçəkləşdirən bir dövlət var.***

İki il öncə qəbul olunmuş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” bu kateqoriyadan olan uşaqların cəmiyyətə inteqrasiyasında, təhsil almasında mühüm rol oynamışdır.

Proqramın uğurlu icrası nəticəsində sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sistemli xarakter almış, inklüziv və məsafədən (distant) təhsil üçün əsaslı zəmin yaradılmış, sağlamlıq imkanları məhdud uşaqların təhsilinin səmərə və keyfiyyəti yüksəldilmiş, bu sahədə müvafiq pedaqoji kadr hazırlığı təkmilləşdirilmişdir.

Proqramın dörd hissədən ibarət olan tədbirlər planının on beş bəndində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin qarşısına vəzifələr qoyulmuşdur. Ötən iki il ərzində bu vəzifələrin icrasına uyğun olaraq tədbirlər həyata keçirilmişdir. Belə ki, dövlət proqramına uyğun olaraq, muxtar respublika üzrə əlaqə saxlanılan 2610 sağlamlıq imkanları məhdud uşaqdan 701 nəfərinin məktəbəqədəryaşlı olduğu müəyyən edilmiş və onlar haqqında məlumat bazası yaradılmışdır. Əqli və fiziki potensialları nəzərə alınaraq 24 nəfər məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaq muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən uşaq bağçalarına cəlb edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təlim-təhsil işlərinin hərtərəfli həyata keçirilməsi məqsədilə 15 nəfər bu kateqoriyadan olan uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə yerləşdirilmişdir.

Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların fiziki və əqli inkişafını, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə “Naxçıvanım mənim” və “İntibahın şəfəqləri ilə böyüyürük biz” mövzularında Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələri arasında müsabiqə keçirilmiş, 56 nəfər sağlamlıq imkanları məhdud uşaq həmin müsabiqədə iştirak etmişdir. Eləcə də 120 nəfər sağlamlıq imkanları məhdud uşağın iştirakı ilə rəsm, əl işləri, musiqi müsabiqələri və şahmat yarışı keçirilmiş, qaliblərə və iştirakçılara diplom və hədiyyələr verilmişdir.

Ötən iki ildə 7 dəfə rayon (şəhər) icra hakimiyyətləri və Naxçıvan Müəllimlər İnstitutu ilə birgə muxtar respublikada fəaliyyət göstərən uşaq bağçalarında təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması üçün 232 nəfər müəllim, metodist və tərbiyəçinin iştirakı ilə kurslar təşkil edilmişdir. Kurslarda məktəbəqədər müəssisələrin müvafiq işçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə məruzələr dinlənilmiş və tədbir iştirakçılarına mövzuya uyğun əyani vəsaitlər paylanılmışdır.

Proqrama uyğun olaraq, ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə muxtar respublikanın tam orta məktəblərində bu kateqoriyadan olan uşaqların, onların valideynlərinin və müəllimlərinin iştirakı ilə maarifləndirici söhbətlər aparılmış, onları maraqlandıran suallar cavablandırılmışdır. Bundan əlavə, muxtar respublikanın 56 uşaq müəssisəsində keçirilmiş monitorinq və seminarlarda müəllim, uşaq və valideynlər arasında müvafiq mövzuda söhbətlər aparılmış, 4650-dən çox maarifləndirici broşür paylanılmışdır.

Komitə tərəfindən əlaqə saxlanılan sağlamlıq imkanları məhdud 19 uşağın bacarıq və maraqları nəzərə alınaraq, onlar musiqi məktəblərinə cəlb edilmişdir. Sağlamlıq imkanları məhdud 17 uşaq Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin dərnəklərinə, 21 nəfər muxtar respublikada fəaliyyət göstərən müxtəlif idman qruplarına cəlb olunmuşdur.

Ümumtəhsil məktəblərində təhsilə cəlb edilmiş 140 nəfər uşağa komitə tərəfindən məktəbli geyimi dəstləri və məktəbli ləvazimatları verilmiş, əlaqə saxlanılan sağlamlıq imkanları məhdud uşaqlardan əqli imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən 41 uşağın olduğu müəyyənləşdirilmiş və onlar haqqında məlumat bazası yaradılmışdır.

Ümumiyyətlə, proqramın icrası ilə bağlı 2014-cü il və 2015-ci ilin ötən dövrü ərzində komitə tərəfindən 2610 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılmış, bu uşaqlardan 152 nəfər ümumtəhsil məktəblərinə, 21 nəfər idman və şahmat məktəblərinə, 24 nəfər Naxçıvan Uşaq Bərpa Mərkəzinə və 27 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə, 4 nəfər Naxçıvan Regional Peşə Tədris Mərkəzinə yönləndirilmişdir. Bundan əlavə, sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün ekskursiyalar təşkil olunmuş, teatr tamaşaları göstərilmiş, ümumilikdə, bu qəbildən olan 111 uşağa hədiyyələr, 12 uşağa diplom verilmişdir. Müvafiq xəstəliyi olan uşaqlar üçün komitə tərəfindən qanvermə aksiyası təşkil olunmuş, 13 litr müvafiq qruplardan olan qan toplanılaraq həmin uşaqlara köçürülmək üçün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin qan bankına təhvil verilmişdir. Ümumilikdə, komitə tərəfindən 303 sağlamlıq imkanları məhdud uşaq təhsil və reabilitasiya müəssisələrinə cəlb olunmuş, 800-ə yaxın bu qəbildən olan uşağın cəmiyyətə inteqrasiyası üçün tədbirlər görülmüşdür.

Bütün bunlar muxtar respublikada nəinki sağlamlıq imkanları məhdud uşaqların təhsil alması sahəsində əldə olunan uğurlardır, eləcə də onların yaşadıqları evdən cəmiyyətə axışının təşkili, özünəqapanmadan xilasıdır. Əsas məsələ isə qəbul olunan proqramın sağlamlıq imkanları məhdud uşaqların bu sahədə çətinliklərinin real həllinə kömək olmasıdır.

Belə qənaətə gəlmək olar ki, sağlamlıq imkanları məhdud uşaqların gələcək taleyi uğrunda aparılan ikiillik mübarizə bu həssas qrupdan olan uşaqların digər uşaqlarla təhsil ala bilməz fikrində olanların “yaxşı” niyyətini puç etdi. Əsasən, bu uşaqların valideynlərinin fikirlərini dəyişdi, sağlamlıq imkanları məhdud uşaqları evdə oturtmaq, cəmiyyətə çıxarmamaq düşüncəsindən daşındırdı. Artıq muxtar respublikada hər kəs sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsil almasına daha sağlam düşüncə ilə yanaşır.

*“2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” son iki ildə dövlətin həssas vətəndaşına qayğısının ifadəsi kimi tarixə düşdü. Ümid edək ki, sağlamlıq imkanları məhdud uşaqlara belə yanaşma – cəmiyyətə kütləvi şəkildə inteqrasiyasına stimul olmaq gələcək illərdə də davam edəcəkdir. Çünki bu, onların haqqıdır!*

**Sahir RÜSTƏMOV**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

## Ekoloji və kənd yaşıl turizmi mövzusunda tədbir



***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında “Naxçıvan” Universiteti və Naxçıvan Dövlət Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələrin və muxtar respublikada turizm xidməti üzrə fəaliyyət göstərən firmaların nümayəndələrinin iştirakı ilə “Naxçıvan Muxtar Respublikasında ekoloji və kənd yaşıl turizminin inkişaf imkanları” mövzusunda tədbir keçirilmişdir.***

Tədbirdə giriş sözü ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi aparatının rəhbəri Gülbuta Babayeva bildirmişdir ki, muxtar respublikamızda saf ekoloji vəziyyətin qorunmasına və ekoturizmin növlərindən biri olan kənd yaşıl turizminin inkişafına xüsusi diqqət yetirilir. Naxçıvanın unikal təbii şəraiti, kənd ərazilərində sosial-mədəni infrastrukturun ən yüksək standartlar səviyyəsində yenilənməsi kənd turizminin inkişafı üçün əlverişli imkanlar yaradır. Muxtar respublikada, ümumiyyətlə, turizmin inkişafına göstərilən dövlət dəstəyi burada dayanıqlı turizmin inkişafı üçün çox mühüm şərtlərdəndir.

Nazirliyin əməkdaşı Əkbər Novruzov “Naxçıvan Muxtar Respublikasında kənd yaşıl turizminin inkişaf istiqamətləri” mövzusundakı çıxışında Naxçıvanda kənd turizmi üçün mövcud olan ehtiyatlardan, onlardan istifadə üçün görülən işlərdən danışmışdır.

“Naxçıvan Muxtar Respublikasında kənd yaşıl turizminin inkişafında məşğulluq məsələləri” mövzusunda çıxış edən “Naxçıvan” Universitetinin müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarov turizmin bu mühüm növünün inkişafında kadr və məşğulluq məsələlərindən bəhs etmişdir. Qeyd olunmuşdur ki, kənd yaşıl turizminin inkişafı digər yerli resurslarla bərabər, yerli işçi qüvvəsinin potensialından istifadəni də şərtləndirir.

“Naxçıvan Muxtar Respublikasında xüsusi mühafizə olunan təbiət əraziləri və bu istiqamətdə görülən işlər” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsinin müdiri Şövqi Əliyev muxtar respublikamızda ekoturizmin inkişafında qoruq ərazilərinin potensialından istifadə məsələlərinə toxunmuşdur.

Sonra tədbir iştirakçıları Naxçıvan Muxtar Respublikasının ekoturizm potensialından bəhs edən sərgiyə baxmışlar.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi noyabr ayında öz işini təsdiq olunmuş tədbirlər planına uyğun quraraq əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir.*

## Tibbi xidmətin əhatə dairəsi genişləndirilir

Səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması xidmətin səviyyəsini xeyli yaxşılaşdırmış, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması vətəndaşların sağlamlığının qorunması işində mühüm rol oynamışdır.

Ötən ay Culfa rayonunda Qızılca, Ordubad rayonunda isə Gilançay feldşer-mama məntəqələri əhalinin istifadəsinə verilmişdir. Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahi əməliyyatlarının təşkili davam etdirilmişdir. Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqu tərəfindən Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 24 nəfərdə müayinə, 15 nəfərdə əməliyyat yerinə yetirilmişdir.

Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzindən Naxçıvan Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə Mübarizə şöbəsinə HİV, hepatit B, C və sifilis testləri, reaktiv və tibbi materiallar, ARV terapiya aparmaq üçün dərman preparatları, Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə dərman preparatları gətirilmişdir.

Noyabr ayında orta tibb işçilərinin sertifikasiya imtahanında 81 nəfər iştirak etmiş, 76 nəfər uğurlu nəticə qazanaraq müsahibə mərhələsinə qatılmışdır. Ay ərzində müsahibə turunda 152 nəfər iştirak etmiş, 147 nəfər müsahibədən keçmişdir.

Naxçıvan Muxtar Respublikası təhsil müəssisələrində şagirdlərin kütləvi müayinəsi davam etdirilmiş, ilin əvvəlindən 33 min 698 şagirddə müayinə aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkim-bakterioloqu Səbuhi Məmmədov Almaniyanın Hamburq şəhərinin İtstedt qəsəbəsində yerləşən mərkəzi bakterioloji laboratoriyada ikihəftəlik kursda olmuşdur.

Ay ərzində görkəmli cərrah Mehdi Bağırovun 100 illik yubileyinə həsr edilmiş “Cərrahiyyənin aktual problemləri” mövzusunda konfrans, “Stomatoloji innovasiyalar” mövzusunda elmi-praktik konfrans, Azərbaycan Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin iştirakı ilə Naxçıvan şəhərində, Ordubad və Şərur rayonlarında inaktivləşmiş poliomielit vaksininin istifadəsinin məqsədi və tətbiqi qaydaları haqqında pediatrların, epidemioloqların, nevropatoloqların və muxtar respublika vaksinatorlarının seminar-treninqi keçirilmişdir.

Rayon və kənd tibb müəssisələrinin fəaliyyətinə nəzarət məqsədilə noyabr ayında Ordubad rayon Üstüpü həkim ambulatoriyasına, Düylün, Çənnəb feldşer-mama məntəqələrinə, Babək rayon Cəhri Kənd Sahə Xəstəxanasına, Aşağı Buzqov həkim ambulatoriyasına, Payız, Gülşənabad feldşer-mama məntəqələrinə, Şərur Rayon Mərkəzi Xəstəxanasına, Danyeri, Xanlıqlar, Tumaslı, Ələkli, Çərçiboğan, Çomaxtur, Püsyan, Siyaqut, Qarxun, Mahmudkənd həkim ambulatoriyalarına, Tənənəm, Dərəkənd, Arbatan, Dərvişlər, Çəmənli, Qarahəsənli feldşer-mama məntəqələrinə gedilmiş, nöqsanların yerindəcə həll olunması üçün tapşırıqlar verilmişdir.

Ahıl və əlillərə göstərilən tibbi xidməti yaxşılaşdırmaq məqsədilə noyabr ayı ərzində muxtar respublika üzrə 21 nəfər Bakı şəhərinin Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 21 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 12 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

## Müxtəlif yaş qruplu əhali arasında stomatoloji müayinələr aparılır

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Stomatoloji Mərkəzin iş planına uyğun olaraq, muxtar respublikamızda bütün məktəbəqədər və məktəbyaşlı uşaqlar, 17-25 yaşlı gənclər, 25-40 və ondan yuxarı yaş qruplu əhali arasında ildə iki dəfə stomatoloji müayinələrin aparılması nəzərdə tutulub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzində 6 həkim və 6 tibb bacısından ibarət briqada yaradılıb. Yaz mövsümünün stomatoloji müayinələri ümumtəhsil məktəblərini əhatə edib. Bu müddətdə müayinələrə 11 min 435 nəfər məktəbli cəlb olunub.

Payız mövsümünün stomatoloji müayinələrinə isə Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdən start verilib. Burada keçirilən tədbirdə Stomatoloji Mərkəzin baş həkimi Səkinə Məmmədova çıxış edərək dişlərə qulluğun insan sağlamlığında rolundan danışıb. Sonra ağız boşluğuna qulluq haqqında “Sağlam dişlər gözəlliyin rəhnidir” adlı slaydlar nümayiş etdirilib.

Tibb kabinəsində məktəbin I-VI siniflərinin 250 şagirdi profilaktik müayinələrə cəlb edilib, ağız boşluğunun, dişlərin profilaktik müayinələri aparılıb. Kariyes və diş əti xəstəliyi müşahidə olunan şagirdlər barədə məktəbin direktorluğuna məlumat verilib. Həmin şagirdlərin valideynləri tərəfindən müalicəyə cəlb edilməsi tövsiyə olunub. Məktəblərdə fəaliyyət göstərən tibb kabinələrinin işçiləri uşaqların müayinədən keçirilməsində və sənədləşmənin aparılmasında, eyni zamanda qeydiyyata götürülməsində yaxından iştirak edirlər.

Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında, ədliyyə orqanlarında stomatoloji müayinələr başa çatıb. Hazırda Naxçıvan Dövlət Universitetində tələbələr arasında stomatoloji müayinələr aparılır. Artıq 300 tələbə müayinələrlə əhatə olunub. Universitetin Tibb fakültəsinin tələbələri də bu müayinələrdə iştirak edərək praktik vərdişlərə yiyələnirlər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Dədəmiz Qorqud demişdir:



*-Təkəbbürlülük eyləyəni Tanrı sevməz.*

* * *

*-Ağıllı oğul olsa, ocağının közüdür.*

* * *

*-Yalan söz bu dünyada olunca, olmasa yaxşıdır.*

* * *

*-Doğrucul adamlar yüz yaşasa yaxşıdır.*

* * *

*-Atsız kişinin ümidi olmaz.*

* * *

*-Əzəldən yazılmasa, qul başına qəza gəlməz,*

*Əcəl vədə irməyincə kimsə ölməz...*

*A.Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanasında "Kitabi-Dədə Qorqud" dastanının alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinə həsr edilmiş dəyirmi masa keçirilib.*

## Uşaq kitabxanasında dəyirmi masa təşkil edilib

Tədbiri giriş sözü ilə kitabxananın direktoru Kamal Axundov açaraq dastanın alman dilində ilk tərcüməsi və nəşrinin əhəmiyyətindən danışıb.

Sonra Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, psixoloq Çapay Quliyevin, AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Əli Həşimovun, Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanasının böyük kitabxanaçısı Xədicə Hüseynovanın, kitabxananın şöbə müdiri Nüşabə Seyidovanın və başqalarının çıxışları olub. Çıxışlarda qeyd edilib ki, təkcə Azərbaycan xalqının deyil, bütün Türk dünyasının möhtəşəm və əzəmətli tarixini yaşadan, onu bu günümüzə qovuşduran ulu sənət nümunələrindən biri də "Kitabi-Dədə Qorqud" eposudur. Bu bədii söz xəzinəsi türk xalqlarının tarixi salnaməsi, həyat ensiklopediyasıdır. Dastanda hər sözün, ifadənin, adın dərin mənası var və bunların hamısının arxasında soykökümüz olan oğuzların keçmiş tarixi durur. Buna görə də bu dastanın böyüməkdə olan nəslə təbliğ olunması mühüm əhəmiyyət kəsb edir.

Sonra şagirdlərin ifasında dastanın müxtəlif boylarından parçalar səsləndirilib.

## "Kitabi-Dədə Qorqud" möhtəşəm sənət abidəsidir

***Azərbaycan Respublikası Prezidentinin 2015-ci il fevralın 20-də imzaladığı "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" Sərəncam milli-mədəni irsi qoruyub yaşatmağa və yeni nəsillərin Azərbaycançılıq ruhunda tərbiyə olunmasına xidmət edir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 25 iyul 2015-ci il tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər planına əsasən, muxtar respublikada silsilə tədbirlər keçirilir. Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində "Kitabi-Dədə Qorqud" möhtəşəm sənət abidəsidir" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Ceyhun Fərəcov açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb.

Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Fatma Bağırova, kitabxananın əməkdaşı Firdovsi Səfərov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, dünya ədəbiyyatının nadir eposlarından olan bu dastanda tariximiz və milli-mənəvi dəyərlərimiz yaşadılır. Epos xalqımızın zəngin adət-ənənələrini, yaşam tərzini, dünyagörüşünü öyrənmək baxımından da dəyərli sənət xəzinəsidir. Milli dəyərlərin mühüm tərkib hissəsi olan vətənpərvərlik, qəhrəmanlıq, yurd sevgisi əsərin əsas ideyasını təşkil edir. Dastanda baş sərkərdədən tutmuş böyükdən-kiçiyə bütün qəhrəmanların doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə hazır olduqları nümayiş etdirilir.

Tədbirdə vurğulanıb ki, "Kitabi-Dədə Qorqud" dastanlarında təsvir edilən bir sıra tarixi hadisələr məhz Naxçıvan ərazisində baş verib. Qədim diyarımızda "Kitabi-Dədə Qorqud"da ifadə olunan çoxsaylı yer-yurd adlarının qeydə alınması bu regionun qədim Oğuz yurdu olduğunu təsdiqləyir.

Tədbirin sonunda "Kitabi-Dədə Qorqud" möhtəşəm sənət abidəsidir" adlı sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

## Futbol üzrə muxtar respublika çempionatının ilk dövrəsi başa çatıb

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının təşkil etdiyi futbol üzrə XIV Naxçıvan Muxtar Respublika çempionatının ilk dövrəsi başa çatıb.*



10 komandanın mübarizə apardığı çempionatın ilk mərhələsinin son turu liderlərin qarşılaşması ilə yadda qalıb. Bu tura kimi turnir cədvəlində liderliyi əldən verməyən "DİN-Darıdağ" mövsümdə ilk məğlubiyyəti ilə üzləşib. Doğma arenada çempionatın favoriti "Araz-Naxçıvan"ı qəbul edən "DİN-Darıdağ" meydanı 2:3 hesablı məğlubiyyətlə tərk edib. Onların 9-cu turda məğlub olmasından Naxçıvan Dövlət Universitetinin (NDU) komandası maksimum yararlanıb. Səfərdə "Batabat"dan üstün olan (2:4) tələbələr turnir cədvəlindəki mövqelərini bir qədər yaxşılaşdırıblar. Digər 3 oyunda isə meydan sahibləri aktivlərinə üç xal yazdırmağa müvəffəq olublar. "Arpaçay" çempionatın autsayderi "Sədərək" komandasını, "Babək" isə "Kəngərli" komandasını böyük hesabla üstələyib – 3:0. "Dübəndi"-"Əlincə" görüşündə isə ordubadlılar mövsüm ərzində ikinci qələbələrini bayram ediblər – 2:1.

Futbol üzrə Naxçıvan Muxtar Respublika çempionatının ilk dövrəsi "Araz-Naxçıvan"ın liderliyi ilə yekunlaşıb. "DİN-Darıdağ" komandası eyni xala malik olsa da, "qırmızı-ağlar" səfərdə rəqiblərini üstələdiyinə görə liderliyi ələ alıblar. İndi onların 2015-2016-cı illər mövsümündə yenidən muxtar respublika çempionu olmaq şansı böyükdür. Liderlər cərgəsində qərarlaşan "DİN-Darıdağ" və NDU çempionatın ikinci dövrəsində "Araz-Naxçıvan"ın qonağı olacaq. "DİN-Darıdağ"ı çətin "Arpaçay" səfəri gözləyir. Hər il olduğu kimi, yenə də sərgilədikləri oyunlarla Şərur futbolçuları çempionata rəng qatmaqdadırlar. Onlar cari mövsümdə yalnız 2 komandaya məğlub olmalarına baxmayaraq, əzmkar mübarizələri ilə yadda qalıblar. Çempionatın taleyini turnir cədvəlinin ilk 4 pilləsində qərarlaşan komandaların öz aralarındakı oyunları həll edəcək desək, yanılmarıq. Birinci və dördüncü pillələr arasında 5 xallıq fərqin onlar arasında oynanılacaq görüşlərdə dəyişiləcəyini güman etmək olar.

İlk "dördlük"dən fərqli olaraq turnir cədvəlinin alt pillələrində qərarlaşan komandalar arasında elə də güclü rəqabət getmir. Yalnız "Batabat" və "Babək" komandaları üst pillələrdə qərarlaşmağa can atırlar. Ötən mövsümdə olduğu kimi, yenə də ilk dövrənin yekun turnir cədvəlinin sonuncu pilləsində "Sədərək" komandası yer alıb. Keçirdikləri 9 görüşdə sədərəklilər aktivlərinə bir xal belə yazdırmayıblar.

İlk dövrənin yekun nəticəsinə əsasən, qapısından ən az qol buraxan komanda "Araz-Naxçıvan" (9 qol), rəqib qapıçıları ən çox məyus edən komanda isə "DİN-Darıdağ"dır (37 qol). Ən az qol vuran komanda "Sədərək" (5 qol), ən çox qol buraxan komanda isə "Dübəndi"dir (30 qol).

Çempionatın geridə qalan 9 turu ərzində ən çox qaydaları pozan komanda "Babək"dir – 10 sarı, 4 qırmızı vərəqə. Onları 11 sarı, 3 qırmızı vərəqə ilə Naxçıvan Dövlət Universitetinin komandası izləyir. Bu cədvəlin digər pillələrində "Araz-Naxçıvan" (14 sarı vərəqə), "Kəngərli" (14 sarı vərəqə), "Əlincə" (10 sarı, 2 qırmızı vərəqə), "Arpaçay" (12 sarı vərəqə), "DİN-Darıdağ" (8 sarı vərəqə), "Batabat" (6 sarı, 1 qırmızı vərəqə), "Dübəndi" (6 sarı vərəqə) və "Sədərək" (5 sarı vərəqə) komandaları qərarlaşıb.

9 tur ərzində rəqib qapılarına ən çox qol vuran futbolçu isə Mahir Babayevdir. "DİN-Darıdağ" komandasının hücumçusu bu görüşlərdə 12 dəfə fərqlənməyə müvəffəq olub. Onu 9 qolla "Araz-Naxçıvan"ın hücumçusu Tağı Seyidov izləyir.

**İlk dövrənin yekun turnir cədvəli**

| S/S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 9 | 8 | 0 | 1 | 31-9 | 24 |
| 2. | DİN-Darıdağ | 9 | 8 | 0 | 1 | 37-12 | 24 |
| 3. | NDU | 9 | 7 | 0 | 2 | 23-12 | 21 |
| 4. | Arpaçay | 9 | 6 | 1 | 2 | 21-13 | 19 |
| 5. | Batabat | 9 | 4 | 0 | 5 | 21-25 | 12 |
| 6. | Babək | 9 | 3 | 2 | 4 | 16-21 | 11 |
| 7. | Əlincə | 9 | 3 | 0 | 6 | 10-18 | 9 |
| 8. | Dübəndi | 9 | 2 | 1 | 6 | 15-30 | 7 |
| 9. | Kəngərli | 9 | 2 | 0 | 7 | 14-24 | 6 |
| 10. | Sədərək | 9 | 0 | 0 | 9 | 5-29 | 0 |

*Sədərək Rayon Mərkəzi Xəstəxanasında uşaq, yeniyetmə və gənc idmançılar tibbi müayinədən keçiriliblər.*

## İdmançılar tibbi müayinədən keçirilib

Sədərək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və rayon Mərkəzi Xəstəxanasının təşkilatçılığı ilə keçirilən müayinələrdə idmançıların kütləvi iştirakı təmin olunub.



Rayonda fəaliyyət göstərən idman federasiyalarının bölmələrinin 250-dən çox idmançısı və Uşaq-Gənclər İdman Məktəbinin ayrı-ayrı bölmələrinin idmançıları müayinədən keçirilib. Müayinələr zamanı səhhətində problem olan idmançılara müəyyən vaxt ərzində məşqlərdən uzaqlaşmaları və müalicə almaları məsləhət görülüb.

* * *

Babək rayonunda fəaliyyət göstərən idman federasiyalarının yerli bölmələrinin və Uşaq-Gənclər İdman Məktəbinin uşaq, yeniyetmə və gənc idmançılarının da növbəti tibbi müayinəsi təşkil edilib.

Babək Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə rayon Mərkəzi Xəstəxanasında keçirilən müayinədə səhhətində müəyyən problemləri olan idmançılara müalicə yazılaraq məşqlərə bir müddət ara vermələri tövsiyə olunub.

Keçirilən tibbi müayinələrdə, ümumilikdə, futbol, sərbəst güləş, basketbol, yüngül atletika bölmələrindən 230-dan çox idmançı iştirak edib.

**Ceyhun MƏMMƏDOV**

**Bildiriş**

"Cəfərli" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

**İtmişdir**

Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, bina 41, mənzil 2-də yaşamış Mirheydərzadə Məsmə Mirhəşim qızının adına 13 aprel 2009-cu il tarixdə verilmiş 0011952 seriya nömrəli çıxarış və 6271 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

"Cəfərli" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN-0900043361) məxsus möhür və ştamp itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 924